Uğur hekayəsi

# "QARABAĞ UNİVERSİTETİNİN TƏLƏBƏSİ OLMAQDAN QÜRUR DUYURAM"

İlk baxışda adi bir gənc təəssüratı yaratsa da, arzularının qanadlarında ucalan, əzmkarlığı ilə seçilməyi bacaran bu tələbə doğrudan da, qeyri-adi enerji, istedad və bacarıq sahibidir. Bəli, tələbə olmaq, tələbə adını qazanmaq bütün yaşıdları kimi onun da arzusu olub. Bu gün o, artıq Qarabağ Universitetinin sayılıb-seçilən tələbələrindəndir. Onunla söhbət zamanı – sevinirəm ki, arzuma qovuşdum və tələbə adını qazandım, – dedi: "İndi səylə çalışmalıyam ki, gələcəyin ən yaxşı mütəxəssisi olum. Etiraf etməliyəm ki, Qarabağ Universitetinin tələbəsi adını daşımaqdan qürur duyuram. Bunu özüm üçün xoşbəxtlik sayıram".



Murad Zərbəliyev:

"İndi səylə çalışmalıyam ki, gələcəyin ən yaxşı mütəxəssisi olum"

**Biz ilk tələbələrik**

Murad Zərbəliyev paytaxtdakı 144 nömrəli tam orta məktəbi bitirib. Uşaqlıqdan turizm sahəsinə marağı olub. Həmişə gəzmək, yeni yerləri kəşf etmək arzusu ilə yaşayıb. Elə ona görə də Qarabağ Universitetində "Turizm işinin təşkili" ixtisasına yiyələnməyi qərarlaşdırıb. Arzusu gələcəkdə oxuduğu ixtisasa uyğun olaraq turizm şirkəti qurmaqdır. Sevinir ki, torpaqlarımızın işğaldan azad edildikdən sonra doğma Xankəndimizdə ilk tələbələrdən biridir. Başının üstündə üçrəngli, şanlı bayrağımız yenidən dalğalanır. Zəfər səsimizin bütün tarixi torpaqlarımıza gəlməsini arzulayır. Elə bu həvəslə füsunkar Xankəndinin təbiətindən ilhamlanaraq "Xankəndi" adlı şeirini də yazıb.




**Tələbədən vacib təklif**

Murad təhsil aldığı müddətdə artıq universitetdə bir sıra uğurlara imza atıb. Belə ki, Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunda Xankəndinin nümayəndəsi kimi iştirak edib. Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında Uşaq Səfirlər Məclisinin təcrübə proqramlarında könüllülərdən biri olub, VI forumda isə Böyük Qayıdışın nümayəndəsi kimi təqdim olunub. Panel müzakirələrdə məktəblərdə psixologiya dərslərinin tədrisinin vacibliyini təklif edib. Azərbaycan Prezidenti İlham Əliyevin Forum iştirakçılarına müraciəti bizi daha da ruhlandırdı.

Murad Zərbəliyev universitetdə keçirilən tədbirlərdə də fəal iştirak edir. Deyir ki, Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda keçirilən Beynəlxalq Parlament Konfransının iştirakçıları Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində Qarabağ Universitetində olublar. Qonaqlara universitetin müasir tədris infrastrukturu, mövcud ixtisasları, tədqiqat istiqamətləri və strateji hədəfləri barədə məlumat verilib. Konfrans iştirakçıları auditoriyalar, laboratoriyalar və kitabxana ilə tanış olub, tələbələrlə söhbət ediblər.

**Platformanın qurucularından biri**

"Göytürk Platforması Azərbaycanın Türkiyədəki səfirliyinin yanında fəaliyyət göstərən Mədəniyyət evi ilə birgə əməkdaşlıqdadır. Platformanın 10 qurucu üzvü var. Onlardan biri mənəm. Azərbaycanın təmsilçisiyəm. Hədəfimiz Ulu Öndər Heydər Əliyevin ölkəmizdə gənclərin maarifləndirilməsi işinə töhfə verməkdir. Türk ölkələrinə gəzintilər təşkil etmək, türk xalqlarının tarixi ilə bağlı tədbirlər keçirmək, mədəniyyətimizi nümayiş etdirən musiqi və şeir proqramları təşkil etmək də bizim hədəfimizdədir. Məqsədimiz həm də Qərbi Azərbaycanda insan haqlarının pozulmasını dünyaya çatdırmaq, qərbi azərbaycanlıların adət-ənənələri, tarixi, mədəniyyəti kimi bir sıra məqamları təbliğ etməkdir. Biz könüllülərimizlə birgə Xocalı qurbanlarının əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanını ziyarət edəcəyik".

**"Dəyərlər", "Debat" klublarının üzvü**

Murad Tələbə Həmkarlar Təşkilatının üzvüdür. Tələbələrə təlimlər keçir, layihələrin icrasında kömək edir: "İş planında layihələrin təşkili (könüllülük layihələri, tələbələrin ixtisasları ilə bağlı təcrübə toplamalarına yardım, təlimlər, seminarlar, kurslar) həyata keçiriləcək. Mən həm də universitetdə "Debat", "Dəyərlər" klublarının üzvüyəm, "Dəyərlər" klubunda piar üzrə koordinatoram. Klubun məqsədi gənclərimizə dəyərlərimizi aşılamaqdır. Eyni zamanda "Fitness" klubunun da üzvüyəm. "Debat" klubu debat ilə bağlı, fitness klubu isə sağlamlığımızı qorumaq üçün idman fəaliyyətlərini öyrədir.

**Məktəb illərini xatırlayarkən**

Murad orta məktəbdə yuxarı siniflərdə oxuduğu illəri xatırlayaraq deyir: "Orta məktəbdə də fəal olmuşam. Təhsil aldığım məktəbdə "Maarifləndirmə həftəsi" adlı bir həftəlik təlim də keçmişəm. VIII sinif şagirdləri ilə "Uşaq hüquqları", "Sosial fəaliyyət", "Uşaq Səfirlər Məclisi nədir?", "Vaxtın idarə edilməsi" mövzularında müzakirələr aparmışam. İnteraktiv şəkildə apardığım təlimlərdə Məclisin könüllülüsü olaraq qazandığım təcrübəni şagirdlərlə bölüşüb, onların da gələcəkdə böyük uğurlara imza atmalarına öz töhfəmi vermişəm. Eyni zamanda uşaq yaşlarından rəsmə də marağım olub. Rəsm dərnəyinə yazılmışdım. Dərsdən çıxanda rahatlığı rəsmdə tapardım. Rəsm sahəsində ilk uğurum "İslam həmrəyliyi oyunları çərçivəsində", "Öz dünyanı boya" adlı rəsm müsabiqələrində uğur qazanaraq mükafatlar qazanmışam. Ədəbiyyat fənninə marağım olduğundan 10 yaşımdan şeir yazmağa həvəs göstərmişəm və elə ilk şeirimi də məhz anama həsr etmişəm. Ümumiyyətlə, ana haqqında çoxlu şeirlərim var. Yaxın zamanlarda işıq üzü görəcək "İtirilmiş hisslər" adlı kitabımda bu şeirlərin hamısı yer alacaq".

Bir Azərbaycan gəncinin özünəinamlılığının şahidi olduqca, bütün arzuların yalnız zəhmət bahasına reallaşmasının vacibliyini bir tələbənin dilindən eşitdikcə qürur hissi keçirməmək mümkünsüzdür. O, danışdıqca sanki zəngin gələcəyə uzanan işıqlı bir yolun başlanğıcında özü də bir nur çələnginə çevrilən Vətən oğlunun həyat hekayəsini dinləyirdim.

**Sifai SƏFƏROVA**